**“Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 oktyabr tarixli 162 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 oktyabr tarixli 162 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 775; 2011, №10, maddə 886; 2013, № 8, maddə 904) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə” üzrə:
1.1. 1.1-ci bənddə “İqtisadi İnkişaf” sözləri “İqtisadiyyat və Sənaye” sözləri ilə əvəz edilsin;
1.2. 1.2-ci bənddə “İqtisadi İnkişaf Nazirliyinin Əsasnaməsini” sözləri “İqtisadiyyat və Sənaye Nazirliyi haqqında Əsasnaməni” sözləri ilə əvəz edilsin;
1.3. 2.1-ci bənddən “(informasiya-kommunikasiya texnologiyaları sahəsində sahibkarlıq istisna olmaqla)” sözləri çıxarılsın;
1.4. 4.2 və 5.3-cü bəndlərdə “Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi” sözləri “Nazirlik” sözü ilə əvəz edilsin;
1.5. 5.4 və 6.1-ci bəndlərdə “iqtisadi inkişaf” sözləri “iqtisadiyyat və sənaye” sözləri ilə əvəz edilsin;
1.6. 5.5.9, 5.5.10 və 5.5.11-ci yarımbəndlərdə “Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə” sözləri “Nazirliyə” sözü ilə əvəz edilsin.
2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları”nın 2.1-ci bəndindən “(informasiya kommunikasiya texnologiyaları sahəsi istisna olmaqla)” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 iyun 2014-cü il